• Zəki İSLAM

## Azərbaycan

Atalardan, babalardan,
Əmanətdi Azərbaycan.
Qarış-qarış, addım-addım,
Ziyarətdi Azərbaycan.

Dağlarının zirvəsi var,
Yayda yağır qar üstə qar,
Yeddi qat yer damar-damar
Bol sərvətdi Azərbaycan.

Müstəqildi himnim, dilim,
Ömrüm-günüm, ayım-ilim,
Allah verdi doqquz iqlim,
Səxavətdi Azərbaycan.

Torpağı ləl, Xəzəri ləl,
İnsanları xeyrül-əməl,
İnanmasan görməyə gəl,
Gör, hikmətdi Azərbaycan.

Əvəzi yox, bənzəri yox,
Qəlbi təmiz, könlü də tox,
Zəki İslam, düşmənə ox,
Ədalətdi Azərbaycan!

## Getdi

*Torpaqdan günahsız yaranan babam,*
*Torpağa gedəndə günahlı getdi.*
*Dünyadan yarıyan, doyan olmadı,*
*Kim nə vaxt getdisə, min ahlı getdi.*
*Dərd müqərrər mələk Cəbrayıl vəhydi,*
*Ruzi paylamaqdı Mikayıl cəhdi,*
*Əzrayıl can alan sabit mələkdi,*
*İsmayıl tütəyi sabahlı getdi.*
*Yalandı bacını qardaşa vermək,*
*Habilin arvadı mələkdi mələk,*
*Qabilin arvadı ciniydi kələk,*
*Qardaş ölümündə günahlı getdi.*
*Yüz iyirmi dörd min nəbilər, inan,*
*Bəşərə zamındı, mənşərə güman,*
*Kərbəlada imam Hüseyn Abbasnan,*
*Göstərdi haqq yolun savablı getdi.*
*Zəbur, Tövrət, İncil bəsdə bir bəsdi,*
*Quran əvəzsizdi, çox müqəddəsdi,*
*Məhəmməd Peyğəmbər meraclı səsdi,*
*Yaz Zəki İslam, yaz, cavablı getdi.*

## Əmanət

*Şeirin sözlərinin baş hərfləri yuxarıdan aşağı oxunanda "Bismillahir rəhmanir-rəhim " oxunur*

***Bismillahın be hərifi Əlidə,***
***İlahidən yazılıbdı əmanət.***
***Salavatdı ibadətin sütunu,***
***Məhəmmədə salavat de, salavat.***

***İbtidadı Aliəba, Əbülfəz,***
***Lailahəiləllahdı gözə görünməz,***
***Laşərikdi, sirsifəti bilinməz,***
***Allaha məxsusdu kərəm, kəramət.***

***Haqdan yapış, haqqı bir bil, haqnan ol,***
***İlahidən Əlidədi doğru yol,***
***Rəhiminə rəhim çatmaz, ayıq ol,***
***Rəsulallah saxəsidi, səxavət.***

***Əhlibeyti, həm "Quranı" əmanət,***
***Hikmətində ümmətinə məhəbbət,***
***Məhəmmədin peyğəmbəri şücaət,***
***Allah verib xeyir dua, hər hörmət.***

***Nizam tərəzi var, məhşər günü var,***
***İnsaflı ol tərəzidə misqallar.***
***Rəbbə yalvar, bağışlansın günahlar,***
***Rəhim dilə, o gününə tap nicat***

***Əzəl Allah, Məhəmmədlə Əli gəl,***
***Haqq sizdədi on dörd məsum bəli, gəl,***
***İslam oğlu Zəki çağırır, Əli, gəl,***
***Mən Zəki İslamam, istərəm imdad.***

## *Ədalət*

*Ədalət Nəsibova*

Ədalət Nəsibovun qızıl barmaqlarına
Eşidin ay ellər, siz qulaq asın,
Sirli sazı ələ alır Ədalət.
Qazaxdan səs salır, cahan mülkünə,
Yetmiş iki hava çalır Ədalət,
Dədələnir, dədə qalır Ədalət.

Xəyal bizi, inan, bizdən qoparır,
Gədiklərdə qar borana aparır,
Kərəm karvan, Lələ Kərəm axtarır,
"Yanıq Kərəmi"ni çalır Ədalət,
Dədələnir, dədə qalır Ədalət.

Sazda hava yaradanı axtarır,
Adəmdən ruh hanı, ruh xəbər alır,
Nuhun tufanından min bir söz salır,
Xəyallarda hey dolanır Ədalət,
Dədələnir, dədə qalır Ədalət.

İbrahimdən İsmayılı soruşur,
Musa ilə Tur dağında danışır,
İsanı çarmıxdan yana aşırır,
Haray salır, şivən salır Ədalət,
Dədələnir, dədə qalır Ədalət.

Məhəmməd Peyğəmbər Meracdan gəlir,
Əli şir donunda almasını bölür.
Həsən, Hüseynlə, Abbas sevinir,
Kərbəlanı yada salır Ədalət,
Cəngi çalır, dədə qalır Ədalət.

Dədə Qorqud nəsihət verir cahana,
Şah İsmayıl, Miskin Abdal, Qurbana,
Dədə Ələsgərlə, Növrəs İmana,
Salavat göndərir, çalır Ədalət,
Saz dədəsi dədə qalır Ədalət.

Nizami, Füzuli, Xəstə Qasım da,
Bütün ustadlarla Vurğun yadında,
O dədə Şəmşirim, aşıq Alım da,
Zəki İslam, yenə çalır Ədalət,
Dədələnir, dədə qalır Ədalət.



## *Qardaş*

*Allah eli şən eləsin.*
*İçində də bizi, qardaş.*
*El içində, öl içində,*
*Söz atalar sözü, qardaş*

*Elsiz kəsin nə hörməti,*
*Yox qüruru, məhəbbəti.*
*Əlacsızdı hər minnəti,*
*Götürəcək düzü, qardaş.*

*Gecə-gündüz soraq-soraq,*
*Diyar-diyar əldə çıraq,*
*Axtarıbdı, axtaracaq,*
*Zəki İslam sizi, qardaş.*